1_Layout 1 14.08.2020 9:48 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 15 (581)
15 avqust
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Prezident İlham Əliyev “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

**AZƏRTAC** xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “BOS Şelf” şirkətinin baş direktoru İxtiyar Axundov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdilər.

Dövlətimizin başçısı dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdı.

Qeyd edək ki, “Qarabağ” layihəsi üzrə hazırlanan dayaq bloku SOCAR-ın tarixində həm ölçülərinə, həm də çəkisinə görə hazırlanan ən böyük sualtı konstruksiyadır.

Dayaq bloku ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.



**- Cənab Prezident, bu gün “Qarabağ” yatağının dayaq bloku dənizə yola salınır. Bu mühüm hadisənin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Bu, çox əlamətdar hadisədir. Bu gün “Qarabağ” yatağının dəniz işlərinə start verilir. Bu, yatağın işlənməsində çox önəmli mərhələdir. Bu nəhəng qurğu Azərbaycan mütəxəssisləri tərəfindən ölkəmizdə inşa edilibdir və bu gün artıq dənizə yola salınır. Əminəm ki, özülün üst hissəsi də vaxtında tikiləcək və beləliklə, biz “Qarabağ” yatağının tammiqyaslı işlənməsinə başlayacağıq.

1990-cı illərdə Heydər Əliyev neft strategiyasının icrası nəticəsində pay bölgüsü haqqında kontrakt imzalanmışdır. 1990-cı illərdə bu yataqda 3 quyu qazılmışdır. Lakin xarici tərəfdaşlar “Qarabağ” yatağının səmərəliliyinə inanmamışdılar, kontrakta xitam verilmiş və “Qarabağ” yatağı tərk edilmişdi. Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir.

Onu da bildirməliyəm ki, bu, müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır. Çünki “Azəri”, “Çıraq”, “Günəşli” yataqları sovet dövründə kəşf edilmişdir. “Şahdəniz” və “Abşeron” yataqları qaz-kondensat yataqlarıdır. Neft yatağı olaraq bu, birinci yataqdır və bu nəhəng qurğu Xəzər dənizində inşa edilmiş ən böyük qurğudur. Ona görə bu layihənin əhəmiyyəti haqqında çox danışmaq olar. Əlbəttə ki, bu, bizim uğurlu siyasətimizin nəticəsidir. Çünki artıq 1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, bu günə qədər Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən maraq azalmır, əksinə, artır. Əminəm ki, növbəti illərdə “Qarabağ” və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək.

**- Bu böyük qurğu çox mürəkkəb və nəhəng konstruksiyaya malikdir. Qurğunun mühəndis-texnoloji xarakteristikalarının önəmini necə qiymətləndirirsiniz?**

- Bəli, bu, doğrudan da çox mürəkkəb konstruksiyadır və qurğunun çəkisi 16 min tondan çoxdur, hündürlüyü təqribən 190 metrə yaxındır. Nəzərə alsaq ki, “Qarabağ” yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, “Qarabağ” yatağında suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Ona görə “Qarabağ” yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik. Şadam ki, bunu Azərbaycan mütəxəssisləri inşa ediblər.

Ona görə bu qurğu bir daha bizim qüdrətimizi göstərir. Bu, sırf Azərbaycan istehsalıdır və Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət edəcəkdir.

**- Bəs “Qarabağ” yatağından hasilat nə vaxt gözlənilir?**

- Əgər hər şey plan üzrə getsə, hesab edirəm ki, iki ildən sonra - 2022-ci ilin sonunda ilk qaz və ilk neft çıxarılmalıdır. “Qarabağ” yatağının neft potensialı 60 milyon ton səviyyəsində qiymətləndirilir. Ancaq mən tam əminəm ki, işlənmə dövründə bu rəqəm artacaq. Bunu deməyə əsas verən odur ki, “Qarabağ” yatağı “Azəri”, “Çıraq”, və “Günəşli” yataqlarının yanında yerləşir, məsafə o qədər də böyük deyil. Xatırlayıram, “Azəri”, “Çıraq”, “Günəşli” yataqları üzrə kontrakt 1994-cü ildə hazırlanarkən o vaxt xarici tərəfdaşlar bu yataqların potensialını 511 milyon ton neft həcmində dəyərləndirmişdilər. Ancaq həyat onu göstərdi və bu gün bu təsdiq olunub ki, “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının potensialı 1 milyard ton neftdən çoxdur. Ona görə bu və digər geoloji amillər deməyə əsas verir ki, “Qarabağ” neft yatağında daha böyük həcmdə təbii ehtiyatlar var. Hasilata gəldikdə isə, bu yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5-1,8 milyard kubmetr qaz hasil ediləcək.

**- Hazırda Azərbaycanda digər nəhəng neft-qaz layihələri də həyata keçirilir. Onların icra vəziyyəti hansı səviyyədədir?**

- Deyə bilərəm ki, bütün layihələr uğurla icra edilir. Bu gün bu barədə mənə kiçik təqdimat edildi. Bildiyiniz kimi, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının işlənilməsi üzrə bütün işlər plan üzrə gedir. Burada inşa edilən yeni platforma onu göstərir ki, bu yataqların uzunmüddətli işlənməsi artıq reallıqdır. Bildiyiniz kimi, kontraktın müddəti uzadılıb və Azərbaycan bundan böyük fayda götürür, bizə bir neçə milyard dollar dəyərində bonus ödənilib.

“Azəri”, “Çıraq” və “Günəşli” yataqlarında hasilatın sabit saxlanması əlbəttə ki, bizim üçün vacib məsələdir. Eyni zamanda, Azərbaycan ictimaiyyəti onu da bilməlidir ki, bizim qaz potensialımızın önəmli hissəsi “Azəri”, “Çıraq” və “Günəşli” yataqları hesabına formalaşır.

Eyni zamanda, “Şahdəniz-2” layihəsi uğurla icra edilir. Bu, dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir.

Gələn il “Abşeron” qaz-kondensat yatağından ilk qazın hasilatı gözlənilir. “Abşeron” yatağının işlənilməsinin iki mərhələsi olacaqdır. Bu da bizim qaz potensialımıza müsbət təsir göstərəcəkdir.

“Şəfəq-Asiman” yatağı üzrə işlər qrafik üzrə gedir. İndi qazma işləri aparılır. Bu yatağın da çox böyük potensialı var. Əlbəttə, qazma işləri ehtiyatların dəqiq həcmini göstərəcək.

Əlbəttə, indi bizim əsas diqqətimiz Cənub Qaz Dəhlizinin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq.

**- Cənab Prezident, bu dayaq blokunun göndərildiyi yataq hamımız üçün doğma və əziz olan Qarabağ adını daşıyır. Bununla bağlı fikirlərinizi bölüşməyi xahiş edərdik.**

- Hesab edirəm ki, bu, rəmzi məna daşıyır. Çünki bildiyiniz kimi, Azərbaycan xarici tərəfdaşlarla bir çox yataqlar üzrə kontraktlar imzalamışdır. Ancaq heç də onların hamısı səmərə verməmişdir. Artıq bir çoxlarının icrası dayandırılıb, onların icrasına xitam verilib, qazılmış quyular ümidlərimizi doğrultmayıb. “Qarabağ” yatağının işlənməsinə gəldikdə, mən bir daha demək istəyirəm, hər zaman əminlik var idi ki, burada böyük potensial, böyük neft və qaz ehtiyatları vardır. Ancaq bayaq qeyd etdiyim kimi, 1990-cı illərdə üç quyu qazılmışdı, xarici tərəfdaş artıq bəyan etmişdi ki, bu, gələcək investisiya səmərəsiz olacaq və beləliklə, “Qarabağ” yatağı tərk edilmişdir. Biz, əslində, heç nə itirmədik. Çünki Azərbaycan o kəşfiyyat dövründə öz üzərinə heç bir maliyyə öhdəliyi götürməmişdi. Əksinə, hətta uğursuz nəticə də nəticədir, bizə əlavə geoloji məlumat veribdir. Bu gün Azərbaycan vaxtilə - 1990-cı illərdə tərk edilmiş “Qarabağ” yatağına qayıdır və bu, nəhəng dayaq bloku bunun əyani sübutudur.

Eyni zamanda, 1990-cı illərin əvvəllərində Azərbaycanın o vaxtkı rəhbərliyi – AXC-Müsavat cütlüyü torpaqlarımızın işğal altına düşməsinə imkan yaratdı. Yəni, onların xəyanəti, satqınlığı, fərariliyi nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Azərbaycan, - əgər belə analogiya aparmaq mümkündürsə, - Qarabağı tərk etmişdi. Biz 2016-cı ildə torpaqlarımızın bir hissəsini qaytardıq, işğalçıları o torpaqlardan qovduq və o ərazilərə həyat qayıtdı, vətəndaşlar qayıtdı, Azərbaycan qayıtdı. Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**- Çox sağ olun, cənab Prezident. Minnətdarıq.**

- Sağ olun.

## Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçılar hərbi andı qəbul ediblər

**Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı gənc əsgərlərin hərbi andiçmə mərasimində iştirak edib.**

Avqustun 7-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Mərasim Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik-leytenant Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra tədbirdə iştirak edən Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı hərbi andiçmə münasibətilə əsgərləri təbrik edib. Daxili Qoşunların komandanı hərbi andı qəbul etdikləri günün hərbi qulluqçuların həyatında unudulmaz, şərəfli və təntənəli bir gün olduğunu vurğulayıb. O, xüsusi olaraq qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin yaratdığı və qurucusu olduğu Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz hissəsi olan Daxili Qoşunlar məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində yüksək döyüş hazırlığına, sosial və maddi-texniki bazaya malik olmuşdur. Bu gün də hörmətli Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ulu Öndərimizin ənənələrini, onun Silahlı Qüvvələrə olan diqqət və qayğısını uğurla davam etdirir. Eyni zamanda bu gün Daxili Qoşunların peşə və döyüş hazırlığının möhkəmləndirilməsi məqsədilə Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun əmr və göstərişlərinə uyğun davamlı tədbirlər həyata keçirilir.





General-leytenant Ş.Məmmədov hərbi andın Azərbaycanın cəsur, sədaqətli vətəndaşı olmaq üçün əsgərlərin atdığı ilk addım olduğunu qeyd edərək, Vətənin taleyinin yalnız millətini, torpağını sevən, onun uğrunda canını hər an fəda etməyə hazır olanlara etibar edildiyini bildirdi: **“Qəlbinizdə, düşüncənizdə ancaq Vətənə namusla, ləyaqətlə xidmət etmək hissi olsun. Sizə həvalə olunmuş bütün vəzifələri uğurla yerinə yetirməyi, sıralarına daxil olduğunuz Daxili Qoşunların adını və nüfuzunu qorumağı, ucaltmağı arzu edirəm”**.

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı əsgərləri hərbi andiçmə münasibətilə bir daha təbrik edərək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun dövlət və dövlətçilik naminə əmrlərini yerinə yetirməyə hər an hazır olacaqlarına, dövlətimiz tərəfindən göstərilən ali diqqət və qayğıya fədakar xidmətlərilə cavab verəcəklərinə əminliyini bildirib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

Qeyd edək ki, Daxili Qoşunlar komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədovun və Daxili Qoşunların Baş İdarəsində İnspeksiyanın rəisi polkovnik Rəşadət Nəbiyevin iştirakı ilə digər iki hərbi hissədə də andiçmə mərasimləri keçirilib.

**Mətbuat xidməti**

2_Layout 1 13.08.2020 20:16 Page 1



# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ YARIŞ UĞURLA BAŞA ÇATIB

**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov yarışın hazırlığını və keçirilməsini yüksək qiymətləndirib.**

Avqustun 8-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Təlim Mərkəzində Daxili Qoşunların və Əlahiddə Çevik Polis Alayının kütləvi iğtişaşlara müdaxilə avtomobillərinin sürücü və operatorları arasında yarış keçirilib. Yarışın keçirilməsində məqsəd sürücü və operatorların hazırlıq səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi olub.












Yarışda Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov, Əlahiddə Çevik Polis Alayının komandiri polis general-mayoru Səhlab Bağırov və Daxili Qoşunlar komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak ediblər.

Əvvəlcə Daxili Qoşunlar komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor T.Hüseynov Daxili Qoşunların komandanına şəxsi heyətin tədbirə hazır olması barədə raport verib.

Qeyd edək ki, tədbirə Daxili Qoşunların hərbi hissələrindən 24 ədəd, Əlahiddə Çevik Polis Alayından isə 6 ədəd kütləvi iğtişaşlara müdaxilə avtomobili cəlb edilib. Sözügedən yarış Daxili Qoşunlar komandanının müvafiq əmri və DİN-in Daxili Qoşunlarının və Əlahiddə Çevik Polis Alayının kütləvi iğtişaşlara müdaxilə avtomobillərinin sürücü və operatorlarının hazırlıq səviyyəsinin qiymətləndirilməsi məqsədilə keçirilən təlim məşqinin planına əsasən təşkil olunub.

Tədbirdə kütləvi iğtişaşlara müdaxilə avtomobillərinin texniki hazırlığı, sürətli manevr sahəsində sürücülərin fəaliyyəti, avtomobillərin yoxuşda dayandıqdan sonra hərəkəti, yolda quraşdırılmış maneəni dağıtması, özünü söndürməsi, fəalları zərərsizləşdirməsi, qazla qorunması, su topu ilə yanğını söndürməsi və kütləni dağıtması təlim tapşırıqlarının yerinə yetirilməsi qiymətləndirilib.






Yarışın nəticələrinə görə 67987 saylı hərbi hissənin heyəti ilk pillədə qərarlaşmağı bacarıb. Əlahiddə Çevik Polis Alayının heyəti 2-ci, 99713 saylı hərbi hissənin heyəti isə 3-cü yerləri bölüşüblər.

Yarış başa çatdıqdan sonra Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov tədbirin hazırlığını və keçirilməsini yüksək qiymətləndirib. Bu sahədə polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının hər zaman yüksək peşəkarlığı ilə fərqləndiyini qeyd edən nazir müavini, digər hüquq-mühafizə orqanları ilə birgə ölkədə ictimai qaydanın və təhlükəsizliyin qorunub saxlanılmasının mühüm vəzifə olaraq əhəmiyyətini diqqətə çatdırıb. O, kütləvi iğtişaşlara müdaxilə avtomobillərinin ictimai təhlükəsizliyin təmin edilməsində əsas qüvvələrdən olduğunu bir daha qeyd etdi. Bunun üçün bu avtomobillərin sazlığı, onlara texniki qulluğun göstərilməsi daima hərbi hissə və nizami polis hissələrinin komandirlərinin diqqət mərkəzində olmalıdır. Heyət üzvləri olan sürücü və operatorlar hər zaman bilik və bacarıqlarını artırmalı, peşəkarlıq vərdişlərini təkmilləşdirməlidirlər. Bu məqsədlə hərbi hissələrdə polis orqanları ilə birgə real əməliyyat şəraitinə uyğun xüsusi taktiki təlimlər keçirilməli və bu proses davamlı olmalıdır.

Sonda tədbirə yekun vuran Daxili Qoşunların komandanı yarışın qaliblərinə müvafiq dərəcəli kubok və fərmanları, həmçinin, Daxili İşlər naziri adından pul mükafatını təqdim edib.

**Mətbuat xidməti**

# ZƏNGİN HƏYAT TƏCRÜBƏSİ, FƏDAKAR XİDMƏT NÜMUNƏSİ ŞƏRƏF ZİRVƏSİDİR

## *Daxili Qoşunların veteranı Məhəmməd Mirzəyevin 75 yaşı tamam olur*

Məhəmməd Mirzəyevi Daxili Qoşunlarda həqiqi hərbi xidmətə başladığım ilk gündən, indi əşya xidməti adlandırılan, həmin vaxtda isə geyim xidmətinin rəisi kimi tanımışam. O, Baş İdarənin zabit heyəti arasında nisbətən daha yaşlı və daha yüksək – polkovnik-leytenant rütbəsində idi. Buna baxmayaraq, onun hər bir zabitə eyni münasibətlə yanaşması, onlara dünyagörüşü və təcrübəsindən irəli gələn məsləhətlər verməsi, bir sözlə, gənc zabitlərin qarşıda duran çətin və şərəfli xidmət yolunda bacardığı qədər işıq salmağa çalışması diqqətçəkən məqamlardan idi.

1993-cü ilin fevral ayında Məhəmməd Mirzəyev Daxili Qoşunlar komandanının Arxa cəbhə üzrə müavini – Arxa cəbhə rəisi təyin olundu. Təyin olunduğu günün axşam toplanışında Baş İdarənin zabit heyəti qarşısında çıxış etdi. "Çox hörmətli zabit yoldaşlarım. Daxili Qoşunlar komandanı bu gündən etibarən məni Arxa cəbhə üzrə müavini vəzifəsinə təyin edib. Dünənə qədər mən də sizinlə birgə idarə rəisi olaraq bir sırada dayanırdım, yeni təyinata baxmayaraq, yenə də sizlərlə bir sıradayam və bu vəzifəmdə öncə hər birinizə bu günə qədər birgə xidmətinizə görə təşəkkür edirəm. Bu gündən isə mənə göstərilmiş etimad həm mənim, həm də sizlərin qarşınızda yeni məsuliyyətlər yaradır. Hamınızı əmin edirəm ki, bütün səriştəmi, biliyimi və bacarığımı cavabdeh olduğum sahənin normal fəaliyyətinə, inkişafına yönəldəcəm. Digər tərəfdən, bir komandan müavini kimi fəaliyyət göstərdiyimiz indiki döyüş şəraitində hər birinizə qarşı tələbkarlığımı düzgün anlamalısınız. Bu sözləri təyin edildiyim vəzifənin qarşıma qoyduğu məsuliyyəti dərindən dərk etdiyim üçün söylədiyimi bəri başdan düzgün qəbul etməyinizi xahiş edirəm".

M.Mirzəyevin vəzifəyə təyinatı ilə Arxa cəbhə xidmətlərində işə yanaşma, münasibət demək olar ki, kökündən dəyişildi. Əlbəttə, bundan əvvəl də Arxa cəbhə qoşunların təchizatı üçün gecə-gündüz çalışır, ilk növbədə, cəbhə bölgəsinin təchizatını tələb olunan səviyyədə həyata keçirirdi. Dəyişikliklər isə, ilk növbədə, maddi vəsaitlərin bütün sahələrdə dəqiq uçotunun aparılması, əldə olan vəsaitlərin qorunub saxlanılması, tədarük edilmiş əmlakın yerlərə çatdırılması, paylanılmasına məsul şəxslərin təyin olunması, əmlakın dövriyyəsinə nəzarət sisteminin qurulması, baş verə biləcək əyinti hallarının profilaktikası, aşkar edilməsi, qarşısının alınması ilə bağlı idi. Arxa cəbhə təminatında əsas məqsəd isə maddi vəsaitlərin təyinatı üzrə sonuncu nöqtəyə, istehlakçıya – əsgərə çatdırılması müəyyənləşdirilmişdi, yeni əmlakın tədarük edilərək hissələrə göndərilməsi yalnız işin başlanğıcı hesab olunurdu və sonuncu əsgər təmin ediləndək bu proses nəzarətdə saxlanılırdı. Bütün bu işlərin aparılmasının ən böyük çətinliyi peşəkar kadr heyətinin kəskin çatışmazlığı, xüsusən də Arxa cəbhə üzrə peşəkar zabitlərin barmaqla sayılacaq sayda olması idi. Ona görə də yuxarıda qeyd olunan xidməti vəzifələrin icrası böyük çətinliklərlə başa gəlirdi. Şəxsi heyətin qeydiyyatında yol verilən yanlışlıqlar təminat işində də ciddi problem yaradır, xüsusilə ərzaq təminatında axsamalar meydana çıxırdı. Bütün bunlara baxmayaraq, həmin dövrdə xidmət etmiş hərbi qulluqçularımız yaxşı xatırlayırlar ki, qoşunlarda ərzaq təminatı həmişə lazımi səviyyədə icra edilirdi.




Atəşkəs dövründə M.Mirzəyev iş prinsiplərini yenidən müəyyənləşdirməyə, yeni şəraitdə yeni üsullarla işləməyə başladı. Onun ən önəm verdiyi məsələlərdən biri tabelikdə olanların metodiki peşəkar hazırlığı idi. Təsadüfi deyil ki, əksəriyyəti mülki həyatdan peşəkar hərbi qulluğa qəbul edilmiş hərbi qulluqçular polkovnik M.Mirzəyevin "məktəbini" keçərək, qoşunlarda ən yüksək maddi məsul vəzifələrə qədər yüksəlməyi bacarmışdılar və bu gün də qoşunların həyatında öz xidməti töhfələrini verməkdədirlər.

Heç kimə sirr deyil ki, döyüşlər gedən müddətdə maddi vəsaitlərin istifadəsinə nəzarət o qədər də asan deyil, amma dinc dövrdə bütün bu məsələlərə xüsusi nəzarət olunur, hüquq-mühafizə orqanları tərəfindən planlı yoxlamalar aparılır. Belə bir vəziyyətdə polkovnik M.Mirzəyevin peşəkar ustalığını tamamlayan, zəngin mənəvi keyfiyyətlərinin, məncə, ən bariz nümunəsi elə özünün tabeliyindəkilərlə münasibətində irəli sürdüyü "qoru və qorun" şüarı idi. Bu şüarın əsas məqsədi tabelikdə olanların öz vəzifə borclarını düzgün yerinə yetirməsinə nail olmaqla onları qorumaq və son nəticədə də qorunmaq idi. Qeyd etməliyəm ki, M.Mirzəyev bütün xidməti boyu özünün irəli sürdüyü bu şüara sadiq qaldı.

Polkovnik M.Mirzəyevin xidməti yalnız rəhbərlik etdiyi sahə ilə məhdudlaşmırdı. O, komandan müavini kimi hərbi hissələrdə iştirak etdiyi yekun, kompleks və məqsədli yoxlamalar zamanı şəxsi heyətin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının yoxlanılmasına ciddi fikir verir, bir çox halda isə yoxlamanı özünəməxsus yanaşma tərzi ilə kollektiv bayram tədbirinə çevirməyi bacarırdı.

Hərbi hissələrdən birindən çoxsaylı şikayət daxil olur, komandanlıq ən ciddi yoxlama kimi polkovnik M.Mirzəyevin rəhbərliyi ilə yoxlama qrupu göndərir. Heç kimin gözləmədiyi halda polkovnik M.Mirzəyev şəxsi heyətdən 3 km qaçış üzrə normativləri qəbul edəcəyini bildirir və hissənin fiziki hazırlıq rəisini sıra önünə dəvət edərək, qaçış qaydalarını izah etməsini istəyir. İzahatdan sonra şəxsi heyət normativləri qənaətbəxş verir və bunu yoxlamanın yekununda ən maraqlı, yaddaqalan tədbir kimi qiymətləndirirlər. Yekunda isə hərbi hissənin rəhbərliyinə daxil olmuş şikayətlərin haqlı olduğunu və bundan ciddi nəticələr çıxarmalı olduğunu böyük ustalıqla izah edir. Digər oxşar hal isə həmişə yüksək nəticələri ilə fərqlənən taborlardan birində baş vermişdi. Daxili Qoşunların komandanı taborun nəticələrinin nə dərəcədə doğru olduğunu öyrənmək istəyir və bu məqsədlə polkovnik M.Mirzəyevə bu məsələyə xüsusi diqqət yetirməyi tapşırır. Yoxlama zamanı doğrudan da yaxşı nəticələr qazanan taborda atəş hazırlığının növbəsi gəlir. Atəş sahəsində müşahidə aparan M.Mirzəyev tabor komandirinin fərdi qaydada hər bir əsgərin avtomatının sıfırlanmasında və atəşə hazırlığında şəxsən iştirak etdiyini görür. Atəşin nəticələri də yüksək olur, bundan sonra taborun yüksək nəticələri daha heç kimdə şübhə yaratmır. Qeyd olunan hadisələrdən əlavə, polkovnik M.Mirzəyev tərəfindən hərbi hissələrdə real vəziyyətin aşkara çıxarılmasına, aşkar edilmiş nöqsanların yerindəcə aradan qaldırılmasına dair onlarla nümunə göstərmək olar.

Polkovnik M.Mirzəyevin xalqımız qarşısında, ordu quruculuğunda xidmətləri Azərbaycan dövləti tərəfindən də yüksək qiymətləndirilib və o, çoxsaylı mükafata, müxtəlif orden və medallara layiq görülüb. Amma onun ən böyük mükafatı Vətənimizin ağır günlərində böyük bir məsuliyyət hissi ilə Daxili Qoşunların yaranmasındakı rolu və Arxa cəbhə xidmətində yaratdığı təməl prinsiplərin bu gün də qoşunların inkişafına verdiyi töhfələrdir.

Bu gün polkovnik Məhəmməd Mirzəyev həyatının müdrik çağına - 75 yaşına qədəm qoyur. O, yenə də həyatının 40 ilindən çoxunu şərəflə xidmət etdiyi hərbi işə sevginin, Vətənə sədaqətin nümunəsi kimi gənc zabitlərimizə örnəkdir.

Biz də Daxili Qoşunların veteranları olaraq polkovnik M.Mirzəyevə bundan sonra da möhkəm sağlamlıq və həmişə olduğu kimi, ön cərgələrdə olmağı arzu edirik.

**Səfxan Bayramov**
**Daxili Qoşunların Veteranlar Şurasının İdarə Heyətinin üzvü**

3_Layout 1 13.08.2020 20:11 Page 1



# HƏRBİ XİDMƏTİN DÜZGÜN TƏŞKİL EDİLMƏSİ ÜÇÜN İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ OLDUQCA VACİBDİR

Cari ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinciliyi qazanan və hərbi intizama ciddi riayət edən bölmələrdən biri Daxili Qoşunların Ali Hərbi Məktəbinin komendant bölüyüdür. Xidmətdə nailiyyətləri, əzmkarlığı ilə fərqlənən komendant bölüyünə növbəti dəfə keçici kubok təqdim edilib.



Qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirən, döyüş hazırlığının artırılması yönündə səylə çalışan komendant bölüyünün birinciliyi qazanmasında kapitan Allahverdi Nəbiyevin əməyi danılmazdır. Qeyd edim ki, kapitan Allahverdi Nəbiyev 2015-ci ilin dekabr ayından komendant bölüyünün komandiridir.




Tabeliyində olan şəxsi heyətin mənəvi keyfiyyətlərini nəzərə alaraq, onların hərbi nizamnamələrin tələblərinə, hərbi intizama sözsüz əməl etmələrinə, həmçinin, zahiri görkəmlərinə və geyimin daşınma qaydalarına riayət olunmasına daima diqqət yetirir. O, gündəlik olaraq şəxsi heyətin bölük və məktəb üzrə xidmətə cəlb olunduğunu bildirdi.

Qeyd etdi ki, komendant bölüyü Ali Hərbi Məktəbin Döyüş Bayrağının, anbarların mühafizəsi və müdafiəsi üçün döyüş xidməti aparır. O, hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, həm də hər birinin sağlam səhhətə, düzgün düşüncəyə malik olmasının vacibliyini vurğuladı. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçuların seçilməsi nəzarətdə saxlanılır. Qarovul nəfərlərinin seçilməsində bir sıra vacib amillərə diqqət yetirildiyini deyən kapitan A.Nəbiyev xidmət öncəsi tərbiyə işləri üzrə bölmədə təlimatçı-psixoloq Mərifət Məmmədova tərəfindən döyüş xidmətinə cəlb olunan hərbi qulluqçularla psixoloji söhbətlərin aparıldığını nəzərimizə çatdırdı. Mütəmadi olaraq aparılan söhbətlərin məqsədi psixoloji durumunda, əhval-ruhiyyəsində hər hansı bir problem aşkar edilən hərbi qulluqçunun xidmətdən kənarlaşdırılmasıdır.

Bölük komandiri hərbi qulluqçular qarşısında qoyulan tələblər barədə də məlumat verdi. Şəxsi heyətlə işləməyin çətin, eyni zamanda məsuliyyətli olduğunu bildirərək, bölükdə komandir heyətinin üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşdığını qeyd etdi: "Hərbi qulluqçular tərəfindən tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi, sağlam kollektivin yaradılması həmişə diqqət mərkəzindədir. Xidmətə yeni qəbul olunan hərbi qulluqçular da qısa müddət ərzində hərbi xidmətə adaptasiya olunurlar. Yoldaşlıq, intizam və məsuliyyət olan yerdə uğur da, qələbə də vardır. Şübhəsiz ki, bütün bunlar bölüyün birincilik qazanmasının əsas səbəblərindəndir".

Bölüyün gündəlik fəaliyyətində nəzərdə tutulan tədbirlər məktəb rəisi tərəfindən təsdiq olunmuş günün nizam qaydalarına əsasən vaxtlı-vaxtında həyata keçirilir. Məşğələlərdə hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin artırılmasına xüsusi önəm verilir. Fiziki və atəş hazırlığı məşğələlərində isə əsas diqqət şəxsi heyətin dözümlüyünün artırılmasına, müəyyən olunmuş normativlərin hərbi qulluqçular tərəfindən keyfiyyətlə yerinə yetirilməsinə, atış vərdişlərinin formalaşdırılmasına yönəldilir.




Komendant bölüyü komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Azər Qurbanov şəxsi heyətin mənəvi-psixoloji durumunun daima yüksək səviyyədə olmasını diqqət mərkəzində saxlayır. Qarovulda hərbi qulluqçular arasında qarşılıqlı münasibət, davranış qaydaları, postlarda xidmət apararkən intizamlı, ayıq-sayıq olmaları, hər hansı bir hərbi qulluqçunun mənəvi-psixoloji vəziyyəti zəif olarsa, xoşagəlməz hadisə ilə rastlaşdıqda aidiyyəti üzrə dərhal məlumat verməlari, bir sözlə, hərbi nizamnamələrdə və qanunvericilikdə nəzərdə tutulan bütün qaydalara ciddi əməl etmələri tələb olunur.




Bölükdə asudə vaxtlarında hərbi qulluqçular dövri mətbuat mütaliə edir, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat və digər stolüstü oyunlar oynayırlar. Komandirlər şəxsi heyətin asudə vaxtının maraqlı və yaddaqalan keçməsi üçün yarışlar, viktorinalar keçirirlər. Yarışların qalibləri isə mükafatlandırılır. Bütün bunlar şəxsi heyətin hərbi intizamına, vətənpərvərlik ruhunda tərbiyə olunmasına və bilik səviyyəsinin artırılmasına müsbət təsir göstərir.

Baş leytenant A.Qurbanov funksional vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçulardan əsgər Azər Qələndərlinin adını çəkdi. Bu hərbi qulluqçunu komendant bölüyünün ən hazırlıqlı hərbi qulluqçularından biri kimi təqdim etdi. Komandirlər tərəfindən verilən tapşırıqları qətiyyətlə, dəqiq və vaxtında yerinə yetirən əsgər A.Qələndərli vəzifə borcunu yaxşı bildiyinə, xidmətdə fərqləndiyinə, məşğələlərdə fəal iştirakına görə dəfələrlə mükafatlandırılıb. O, istər xidmətdə, istərsə də təlimlərdə öz vəzifəsini yüksək bacarıqla icra edir. Azər idmanın cüdo və sambo növləri üzrə respublikada keçirilən idman yarışlarında müsbət nəticələr əldə edib, dəfələrlə respublika çempionu adına layiq görülüb. Əsgər A.Qələndərli deyir ki, bu gün Vətənə xidmət ən şərəfli vəzifədir, hər birimiz əlimizdən gələni etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin edilsin.

Bölük komandiri hər zaman çalışqanlığı, intizamı və nümunəvi xidmətilə seçilən digər hərbi qulluqçulardan baş çavuş Ramil Dənziyevi, əsgər Yusif Afatovu müsbət xarakterizə etdi.

**baş leytenant**
**Sadıq Rəfiyev**

# Zabitimiz rabitə üzrə təlim kursunda fərqlənməyi bacarıb

Daxili Qoşunların beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin ötən illər ərzində formalaşması və inkişafı hərbi qulluqçularımızın ayrı-ayrı xidmət sahələri üzrə yeni biliklərə yiyələnməsinə, qabaqcıl təcrübənin öyrənilməsinə geniş imkanlar yaradıb. Bu baxımdan qardaş Türkiyə Respublikasının hərbi qurumlarının göstərdikləri dəstək peşəkar hərbçi kadrların hazırlanması, müasir texnologiyalarla tanışlıq, onlardan istifadənin reallaşdırılması üçün olduqca vacibdir.



Daxili Qoşunların zabitləri leytenantlar Musa Hümbətov və Fəxri İslamlı cari ildə yanvarın 13-dən iyulun 17-nə kimi Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində xidməti ezamiyyətdə oldular. Onlar Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının MEBS tədris mərkəzində təşkil olunan "Rabitə üzrə zabit təməl kursu"nda iştirak ediblər. Müvafiq komandanlığın təlimatçıları tərəfindən keçirilən təlim kursunda Azərbaycan, Türkiyə, Əfqanıstan, Somali, Çin, Albaniya, Qambiya və Seneqaldan 14 nəfər hərbi qulluqçu iştirak edib.



Tədris mərkəzinin təlimatçıları tərəfindən müxtəlif rabitə vasitələrinə texniki qulluğun göstərilməsi, rabitə taktikası, güc mənbələri, şəbəkə təhlükəsizliyi, server sistemlərinin idarə olunması, çoxkanallı və təkkanallı rabitə avadanlıqlarının istifadəsi, saxlanılması qaydaları və sair mövzularda keçirilən məşğələlər iştirakçıların bu sahədə nəzəri biliklərinin artırılmasına, habelə praktiki hazırlıqlarının təkmilləşdirilməsinə yönəlib. Təlim kursunda müxtəlif ölkələri təmsil edən iştirakçılar arasında rabitənin təşkili məqamları ilə bağlı faydalı təcrübə mübadiləsi də aparılıb.

Leytenant M.Hümbətov təlim kursunun yekunlarına görə əcnəbi iştirakçılar arasında 4-cü yeri tutub. Hərbi qulluqçumuza Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının MEBS tədris mərkəzinin komandiri polkovnik Faruk Tosun tərəfindən müvafiq sertifikat təqdim olunub. Öz savadı, praktiki səriştəsi, əzmkarlığı və nümunəvi davranışı ilə ölkəmizi layiqincə təmsil edən zabitimizin bu uğuru təqdirəlayiqdir.

Təlim kursunu tamamladıqdan sonra 2020-ci ilin 17 iyul tarixində MEBS tədris mərkəzi komandanlığının, yuxarıda adları göstərilən ölkələrin silahlı qüvvələrinin hərbi attaşelərinin iştirakı ilə kursu bitirənlərə sertifikatlar təqdim olunub.

Türkiyə Respublikasında rabitə üzrə təlim kursundan qayıtdıqdan sonra leytenant M.Hümbətov Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmrilə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində rabitə taqımının komandiri vəzifəsinə təyin edilib.

O, 26 avqust 1995-ci ildə Bakı şəhərində anadan olub. 2012-ci ildə Bakıda yerləşən A.Hüseynzadə adına 20 saylı tam orta məktəb - liseyi bitirib. Hələ uşaqlıq illərindən idmanın cüdo və özgüçülük növləri ilə məşğul olub. Dediyinə görə, hobbisi boş vaxtlarında mütaliə etməkdir. 2013-2017-ci illərdə Türkiyə Silahlı Qüvvələri Quru Qoşunları Ali Hərbi Məktəbində təhsil alıb. 2014-cü ildə Türkiyə Silahlı Qüvvələrinin birinciliyi uğrunda cüdo üzrə çempionatda 1-ci yerin sahibi olub. Daxili Qoşunlara gəlişi 2017-ci il sentyabr ayının 5-nə təsadüf edir. İlk xidmət yeri Daxili Qoşunların 17071 saylı hərbi hissəsi olub.

Gənc zabitimizin uğuru hər birimizi sevindirir və bu cür həbçilərin potensialına hər zaman ehtiyacın olduğunu da vurğulamaq, onlara xidməti fəaliyyətində uğurlar diləmək borcumuzdur.

**baş leytenant**
**Nigar Ağayeva**

# 25033 SAYLI HƏRBİ HİSSƏNİN KİMYA VƏ MÜHƏNDİS XİDMƏTİ NÜMUNƏLİYİ İLƏ SEÇİLİR

25033 saylı hərbi hissənin qərargahında kimya və mühəndis xidməti verilən tapşırıqların icrası zamanı yüksək döyüş hazırlığını qoruyub saxlayan xidmətlərdən biridir. Xidmət rəisi kapitan Tural Qurbanov xidməti-döyüş fəaliyyəti barədə danışarkən qeyd etdi ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsindən başqa, o, hissənin xüsusi vasitələrin tətbiqi bölmələrinin xüsusi vasitələrlə təmin edilməsinə cavabdehdir. Hərbi hissə komandiri tərəfindən müsbət xarakterizə olunan kapitan T.Qurbanov gündəlik xidməti ərzində gördüyü işlərdən danışanda onu maraqlı həmsöhbət kimi də tanıdıq.





Hərbi hissənin zabit və gizirləri ilə mühəndis hazırlığı, kimya və mühəndis vasitələrindən istifadə edilməsi, qorunub saxlanılması üzrə məşğələlər, hissənin bölmələri ilə öz ixtisası üzrə yoxlama məşğələləri aparmaq, xüsusi vasitələrin tətbiqi bölmələrinin hazırlığına rəhbərlik etmək, bilavasitə tabeliyində olan şəxsi heyətin işgüzarlıq və mənəvi keyfiyyətlərini bilmək onun funksional vəzifələrindən irəli gələn məsələlərdir. Həmçinin, o, bölmələrdə, anbarda olan kimya və mühəndis vasitələrindən və əmlaklarından düzgün istifadə edilməsinə diqqət yetirir, üç ayda bir dəfədən az olmayaraq onların sayına, vəziyyətinə şəxsən baxış keçirdir.



Ay ərzində planlaşdırılmış tədbirlərlə yanaşı, xidməti işlərin aparılması üçün hər gün şəxsi heyətə tapşırıqlar verilir. Hissənin kimya və mühəndis təminatının təşkili, şəxsi heyətin mühəndis vasitələri ilə təmin edilməsi və onlardan düzgün istifadə daima diqqət mərkəzində saxlanılır. Xüsusi vasitələrin tətbiqi bölməsində həftənin üç günü ixtisas və Daxili Qoşunların taktiki hazırlığı məşğələlərində xüsusi silahlardan düzgün istifadə olunması, onlara təhkim edilən silah-sursatın təhlükəsiz qaydada üzərində daşınması, həmçinin, müxtəlif hava şəraitində praktiki fəaliyyətin xüsusiyyətləri şəxsi heyətə çatdırılır. Digər iki gün ərzində istehkamçı yarımqrupların şəxsi heyətinə əsasən ərazidə praktiki məşğələlərə üstünlük verilir. Bu zaman ərazidə tapılmamış partlamamış sursatların qiymətləndirilməsi və daşınması, partladıcının hesablanma qaydaları, partlatma işi öyrədilir.

Hərbi hissənin istehkamçı yarımqrupunun döyüş və ictimai-siyasi hazırlığına rəhbərlik edən kapitan T.Qurbanov bildirdi ki, həftənin bir günü hərbi hissədə olan axtarış üzrə kinoloqlarla və onlara təhkim olunmuş xidməti itlərlə müxtəlif növ axtarışlar aparılması üzrə məşğələlərin keçirilməsini təmin edir.

Ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə də fəal iştirakçılarından olan xidmət rəisi müvafiq sxemlərə uyğun olaraq, ərazinin tam axtarışı, həmçinin, nəzarət-buraxılış məntəqələrində avtomobillərin yoxlanılması zamanı yandırıcı, partlayıcı, kəsici və deşici alətlərin aşkarlanması üçün yüksək sayıqlıq nümayiş etdirib.

Bir sözlə desək, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirən kimya və mühəndis xidmətinin rəisi bundan sonra da vəzifə borcundan irəli gələn tələblərə məsuliyyətlə yanaşacağını, komandanlıq tərəfindən göstərilən etimadı hər zaman doğruldacağını vurğuladı.

**baş leytenant Nigar Ağayeva**

# VƏTƏN SEVGİSİ, ONA SƏDAQƏTLİLİK ƏQİDƏSİ İNSAN MƏNƏVİYYATININ ƏN DƏYƏRLİ CƏHƏTİDİR

Vətən sevgisi insanın mənəviyyatında ən dəyərli cəhətlərdən biridir. Həyatı boyu insan dünyaya göz açdığı və böyüyüb boya-başa çatdığı, özünü dərk etməyə başladığı, şəxsiyyət olaraq formalaşdığı, hər qarış torpağına doğmalılıq duyduğu Vətənə bağlılıq hissi ilə yaşayır.

Əcdadlarımızın müqəddəs əmanəti olan Vətən torpağı xalq olaraq güc və qüdrət mənbəyimizdir. Əsrlər boyu bizi Vətəndən məhrum etməyə cəhd göstərən, zəngin sərvətli torpağımıza göz dikərək onu ələ keçirməyə çalışan xarici qüvvələr olub. Xalqımız Vətənin toxunulmazlığı və bütövlüyü naminə çətin sınaqlardan keçib, ağır itkilər verib. Ulularımızın Vətəni göz bəbəyi kimi qorumaq, onun şərəfini uca tutmaq, tarixi irsinin özgəninkiləşdirilməsinə yol verməmək, nemət və sərvətlərinə sahiblənmək, təbiətinin qayğısına qalmaq öyüd-nəsihətləri milli yaddaşımızda silinməz iz qoyub.





Başər tarixində Vətənə xəyanət heç vaxt bağışlanmayan böyük günah, təkcə bunu etmiş şəxsin özünə deyil, həm də ailəsi, nəsli üçün ləkə kimi qəbul olunub, ağır şəkildə cəzalandırılıb.

Ailələrimizdə bütün zamanlarda oğul övladları gələcəkdə Vətənin dayağı və müdafiəçiləri kimi yetişdirilib, bu gün də belə bir məramla tərbiyə olunurlar. Ancaq o da həqiqətdir ki, Vətənin müdafiəsi işi təkcə güclü cinsin üzərinə düşmür, bu şərəfli vəzifənin yerinə yetirilməsində qadınların da məsuliyyəti heç də az deyil. Bu məsələdə hər kəs öz gücü çatan, bilik və təcrübəsi yetən, gərək olan töhfəsini verməlidir.

Vətən sözünü dərk edərək sevməyimiz, onun daşıdığı mənaya rəğbətimiz ana dilimizin bədii çalarları vasitəsilə nitqimizdə, ədəbiyyat nümunələrimizdə ifadəsini tapır. Görkəmli şairimiz mərhum Abbas Səhhətin "Vətən" şeirində belə misralar var:

**Anadır hər kişiyə öz Vətəni,**
**Bəsləyib sinəsi üstündə onu.**

**Saxlaram gözlərim üstə onu mən,**
**Ölərəm, əldən əgər getsə Vətən!**

Bu şeirdə Vətənə ehtiram, ona olan mənəvi borcumuz, uğrunda fədakarlığa çağırış tərənnüm olunur. Ədib şeirində vurğulayır ki, Vətəni sevməyən bir insan varsa, o şəxsdə vicdan olmaz.

Azərbaycanın ilk Xalq şairi, bədii söz ustadı, şeirləri dillər əzbəri olan mərhum Səməd Vurğunun Vətənimizə həsr edilən "Azərbaycan" şeiri də çox dəyərlidir və onu oxuyanlara doğma məmləkətimizə məhəbbət hissi aşılayır:

**Dağlarının başı qardır,**
**Ağ örpəyin buludlardır.**
**Böyük bir keçmişin vardır,**
**Bilinməyir yaşın sənin,**
**Nələr çəkmiş başın sənin.**

Bu misralar Vətənimizin ecazkar təbiətini, sınaqlarla dolu tarixi keçmişini ifadə edir.

Azərbaycanın istiqlal ruhlu böyük şairlərindən biri olan mərhum Məmməd Arazın "Vətən desin" şeirində isə üzləşdiyimiz faciələrə, torpaq itkisi, didərginlik müsibətlərinin acılarına toxunulur, mübarizliyə səsləniş öz əksini tapır.

**Vətən!-desin**
**Qəlbimizin hər duyğusu,**
**hər vurğusu**
**Vətən!-desin.**
**Fərqi yoxdur, harda olaq,**
**Zamanımız, məkanımız**
**Vətən!-desin.**

Azərbaycan atalar sözlərində də Vətən haqqında maraqlı və ibrətamiz fikirlər insanı dərindən düşündürür: "Vətənə gəldim, imana gəldim", "Vətəndən ayrı düşsəm, viran ollam, talannam", "Hər kəsə öz Vətəni əzizdir", "Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi", "Dağ yeri - duman yeri, yurd yeri - güman yeri", "Köçən yurdun qədrini düşən yurdda bilərlər", "Gəzsən də cahanı, Vətən kimi diyar olmaz", "Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır", "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" və sair.

Vətən uğrunda qan tökülür, can verilir, qəhrəmanlıq göstərilir, qeyrət və ləyaqət sınağından keçilir, onun adı ilə içilən and ən müqəddəs and sayılır. İslam dinində deyilir ki, Vətəni sevmək, onun müdafiəsinə qalxmaq, toxunulmazlığı naminə şəhid olmaq imandandır.

Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə xalqımızın dəyanətli övladları yenilməz vətənpərvərlik ruhu nümayiş etdiriblər. Doğma torpaq öz sinəsini sipər edərək düşmənin üzərinə atılan mərdlərin səcdəgahıdır. Müdriklərimiz deyiblər ki, torpaqdan pay olmaz. Heç bir xalq Vətən adlandırdığı torpağının kiçik parçasını belə başqasına güzəşt etməz.

Azərbaycan xalqı öz uzaq və yaxın keçmişində soyqırım, deportasiya, hərbi təcavüz, terror kimi fəlakətləri yaşayıb, lakin bu sarsıntılar onun öz torpağına bağlılığına xələl gətirməyib. Məcburi köçkün soydaşlarımız arasında öz yurdlarından didərgin düşərkən özləri ilə bir ovuc torpaq götürənlər olub. Bəlkə də torpaq itkisi yaşamayan xalqların nümayəndələrinə bu, qəribə görünə bilər, ancaq bizim üçün bir ovuc torpaq yadigarının rəmzi mənası dərindir. Məcburi köçkünlərimiz, o cümlədən, ümumilikdə, ictimaiyyətimiz də o obalara dönəcəyimiz günə ümidlərini itirməyiblər. İldən-ilə döyüş qabiliyyəti daha da güclənən ordumuz zəfər və qayıdış gününü xalqımıza bəxş edəcəkdir.

Hər bir vətəndaşımız özünə sual verməlidir: Vətənimin güclənməsi və inkişafı üçün nə etmişəm? Bəli, bu məsələdə heç kəs özünü kənara çəkə bilməz, bu işdə ictimai həmrəylik taleyüklü məsələdir.

Vətən istiqlalımızın, dövlətçiliyimizin, başımızın üzərində dalğalanan milli bayrağımızın, milli mənlik şüurumuzun, həmvətən məsləyinə söykənən birliyimizin, adət-ənənələrimizin, mədəni irsimizin, qurub-yaratmaq, gələcək nəsillərə şərəfli miras qoymaq əzmimizin varlığı deməkdir.

**Yalçın Abbasov**

# DAVAMLI RABİTƏ DÖYÜŞ HAZIRLIĞININ VACİB ŞƏRTİDİR



Bu gün həyatımızı rabitəsiz təsəvvür etmək mümkün deyil. Çünki günü-gündən müasirləşən dünyamızda hər sahədə rabitə aparıcı rol oynayır. Elə ordu həyatında da üstünlük təşkil edən rabitə sistemi daim müasirləşir və daha da təkmilləşir. Bu sistemin idarə olunmasında peşəkar rabitəçilərimizin rolu böyükdür.

Onlardan biri Ali Hərbi Məktəbdə tədris prosesinin təminatı bölüyünün rabitə taqımında intizamı, nümunəvi xidmətilə seçilən müddətli həqiqi hərbi qulluqçusu əsgər Arif Rüstəmovdur. AHM-in rabitə xidmətinin rəisi baş leytenant Elşad Mövsümov tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər A.Rüstəmov 2001-ci il iyulun 1-də Göygöl rayonunun Quşqara kəndində dünyaya gəlib. Orta təhsilini Quşqara kəndindəki Bəhman Alzamanov adına tam orta məktəbdə alıb. 2019-cu ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər A.Rüstəmov məktəb və bölük komandanlığı tərəfindən müsbət xarakterizə olunur. İstənilən vaxtda verilən tapşırıqların icrasında əzmkarlıq göstərir.

O, Ali Hərbi Məktəbdə fasiləsiz və dayanıqlı rabitə əlaqəsinin təmin olunmasında əlindən gələni əsirgəmir, özünə qarşı tələbkardır. Əsgər A.Rüstəmov rabitə əlaqəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə yerinə yetirir, bu sahədə bilik və bacarığını göstərir.

Ali Hərbi Məktəb rəisinin əmrinə əsasən ikihəftəlik kurs keçdikdən sonra rabitə qovşağının döyüş postuna xidmətə cəlb olunub. Rabitə qovşağının döyüş postunda davamlı rabitə əlaqəsini təmin edir, xətlərin sazlığını mütəmadi olaraq yoxlayır və alınan məlumatları vaxtında aidiyyəti xidmətlərə çatdırır.

Təhkim olunan rabitə vasitələrinin taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir və düzgün istismarını bacarır. Bir sözlə, taqımın ən hazırlıqlı və fəal rabitəçilərindəndir.

Əsgər A.Rüstəmov çox intizamlı, çalışqandır, xidmətə ciddi münasibətilə seçilir. Texnikaya, rabitə qurğularına böyük marağı var. Hərbi xidmətə həvəsi, icraçılığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra Daxili Qoşunların sıralarında xidmətini davam etdirmək arzusundadır.

Vətənə, dövlətə xidmətin hər bir insanda qürur doğurduğunu düşünən əsgərimiz bu yolda hər cür fədakarlığa hazır olduğunu və gələcək həyatını da vətənpərvərlik əqidəsinə sadiq olaraq yaşayacağını bildirir.

**baş leytenant**
**Sadıq Rəfiyev**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Pakistan ordusuna modernləşdirilmiş "Al Khalid" tankları təhvil verilib

Pakistan Silahlı Qüvvələrinə modernləşdirilmiş "Al Khalid" tankları təhvil verilib.

Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, tanklar Pakistan, Çin və Ukraynanın ortaq səyi nəticəsində təkmilləşdirilib.

Proqram çərçivəsində ümumilikdə Pakistan ordusuna 300-dən çox "Al Khalid" tankı verilib.



Modernləşdirmə ilə tankın əsas silahı olan 125 mm yivsiz topun döyüş sursatı 39-dan 49-a, atəş sürəti isə dəqiqədə 9 atışa çatdırılıb. Bundan əlavə, tankın 12.7 və 7.62 mm-lik köməkçi silahlarının da döyüş sursatlarının sayı xeyli artırılıb.

### Çin Əlcəzairə HJ-12 TƏİR kompleksləri ixrac edib

Çin Əlcəzairə HJ-12 "Red Arrow" tank əleyhinə idarə olunan raket (TƏİR) kompleksləri ixrac edib. Bu barədə "Azeri Defence" saytı "Armyrecognition"a istinadən məlumat verib.

Məlumatda bildirilib ki, üçüncü nəsil TƏİR kompleksi hesab edilən HJ-12 "Red Arrow" Əlcəzair Müdafiə Nazirliyinə təhvil verilib.



Tandem döyüş başlıqlı raketlə komplektləşdirilən HJ-12 "Red Arrow" 1100 mm-lik zirehi dəlmək qabiliyyətinə malikdir. TƏİR kompleksinin atış uzaqlığı 4000 metr təşkil edir.

### Yaponiya 100-ə yaxın F-15J döyüş təyyarəsini modernləşdirəcək

"Boeing" və "Mitsubishi Heavy İndustries" (MHI) şirkətləri arasında Yaponiya Silahlı Qüvvələrinin aviasiya parkında yer alan F-15J döyüş təyyarələrinin birgə modernləşdirilməsinə dair müqavilə bağlanıb. Bu barədə "Azeri Defence" saytı "Boeing" şirkətinə istinadən məlumat verib.



Modernləşdirmə proqramının dəyəri 4.5 milyard ABŞ dolları təşkil edir. Modernizasiya nəticəsində F-15J döyüş təyyarələri müasir radioelektron mübarizə sistemi, müxtəlif silah sistemləri, o cümlədən müasir kabinə ilə təchiz ediləcək.

*Həkim məsləhəti*

# ZİRİNCİN TURŞ DADI VƏ FAYDALI ÇAYI

Zirinc orqanizmə güclü təsir edən müalicəvi xüsusiyyətlərə malikdir. Onun tərkibi karbohidratlar, makro və mikro elementlər, K, E vitaminləri, 11 növ alkoloid, limon və alma turşusu, tanin və qətran maddəsi ilə zəngindir. Qədim Misirdə ondan qanı təmizləmək, Çin həkimləri bir çox xəstəliyin müalicəsi, slavyan təbibləri isə bitkinin kök və qabığından hazırlanan cövhərdən soyuqdəymə və qanaxmalar zamanı istifadə ediblər. Onun meyvə, kök və gövdəsi vasitəsilə yun və dəri məmulatları sarı rəngə boyanırdı.



**AZƏRTAC** tibbi mənbələrə istinadla xəbər verir ki, zirinc meyvələrinin şirəsi qızdırmasalıcı, mikrob əleyhinə və qankəsici təsir göstərir.

Tikanlı və yarpağını tökən kol bitkisi olan zirinci qırmızı rəngli xırda meyvələrinin turş dadına və faydalı xüsusiyyətlərinə görə bəzən "şimal limonu" da adlandırırlar.

Zirinc göbələk əleyhinə təsirə malikdir və qocalmanı ləngidir. Zirinc kökünün dəmləməsi göz xəstəlikləri zamanı islatma kimi tətbiq edilir. Bundan başqa, zirincin meyvəsi və ondan alınan cövhər mədəbağırsaq sistemi və ağciyər xəstəlikləri zamanı qəbul edilir.

İkinci dərəcəli şəkərli diabet xəstələrinə hər gün zirinc qəbul etmək məsləhət görülür, çünki onun qanda insulin və şəkəri normallaşdırmaq xüsusiyyəti var. Zirinc qanda xolesterolun miqdarını da azaldır. Həkimlər aktiv həyat tərzi yaşayaraq özünü gün ərzində yorğun və halsız hiss edənlərə zirinc çayı içməyi məsləhət görürlər. Lakin onun qəbulu zamanı diqqətli olmaq lazımdır. Zirinc əzələlərin aktivliyini artırır və ona görə də hamiləlik zamanı zirinc və onun yarpaqlarından hazırlanan dəmləmələri qəbul etmək məsləhət görülmür. Sakitləşdirici preparatlar qəbul edən zaman həmin dəmləmələrdən istifadə etmək olmaz. Bu, dərmanın sedativliyinin artmasına səbəb ola bilər və xəstələrdə baş gicəllənmə, ürək bulanma, qıcolma, burun qanamaları müşahidə oluna bilər.

Tibbdə zirincin spirtli çıxarışı hepatitlərin, öd daşı xəstəliyinin müalicəsində və uşaqlıq qanaxmasının qarşısını almaq məqsədilə tətbiq olunur. Ev şəraitində həmin cövhəri hazırlamaq çox asandır. Bunun üçün 20 qram zirinc yarpağı 100 qram 70 faizli spirtdə 15 gün müddətində isti və quru yerdə saxlanılır. Alınan tünd sarı rəngli cövhərin turşməzə dadı olur.

## Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin şəxsi heyəti kapitan Ramin Rəhimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti leytenant Elvin Süleymanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16073 saylı hərbi hissənin şəxsi heyəti gizir Azər İbrahimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000